Azadlıq Radiosu

DÜNYA

# Senator Rik Skott: 'Putin quldurdur'

indicə




Rik Skott

Rusiyanın Ukraynaya qarşı müharibəsi davam edərkən, Vaşinqton Kremlə təzyiqləri artırmağın, Rusiya, Çin, İran və Şimali Koreya arasında güclənən əməkdaşlığa cavab verməyin yollarını müzakirə edir.

Florida ştatından respublikaçı senator **Rik Skott** avqustun 4-də AzadlıqRadiosuna (RFE/RL) müsahibəsində bu iki məsələnin bir-birindən ayrılmaz olduğunu deyib. Senator Skott Rusiyaya təzyiqin artırılmasının ən fəal tərəfdarlarından, mərhum senator Lindsi Qremin Rusiyaya qarşı sanksiyalar haqqında qanun layihəsinin dəstəkçisi və həmmüəlliflərindən biridir.

R.Skott prezident Donald Trampın bu qanun layihəsini imzalayacağına inandığını bildirib.

**"[Rusiya prezidenti Vladimir] Putin quldurdur. Onun Ukrayna xalqına etdikləri - qadınları, uşaqları və yaşlı insanları öldürməsi iyrəncdir. Biz azadlığın yanında olmalıyıq.**

**Ukrayna xalqının iradəsinə yalnız heyran olmaq olar. Keçən həftə mən iki ukraynalı hərbi komandiri Senata dəvət etmişdim ki, dron texnologiyası və döyüş taktikaları barədə danışsınlar. Onların gördüyü işlər heyrətamizdir.**

**Əgər Rusiyanın addımlarını dəstəkləyirsinizsə, sanksiyalarla üzləşməlisiniz. Buna heç bir şübhə ola bilməz"**, – senator vurğulayıb.

R.Skottun sözlərinə görə, bir tərəfdən Rusiyanın dəhşətli ölkə olduğunu deyib, digər tərəfdən onu məsuliyyətdən kənarda qoymaq olmaz: "Eyni qayda kommunist Çininə də aiddir. Biz kommunist Çindən heç nə almamalıyıq. Onlar öz ordularını gücləndirdikləri bir vaxtda biz hələ də onların məhsullarını almağa davam edirik.

Fikrimcə, bu sanksiyalar haqqında qanun Putini məsuliyyətə cəlb etmək yönündə atılmış mühüm addımdır: "Mən Ukraynanın qalib gəlməsini, Rusiyanın isə məğlub olmasını istəyirəm. Ukraynalılar haqlı, Rusiya hökuməti isə haqsız tərəfdədir".

**AzadlıqRadiosunun Vaşinqton müxbiri Aleks Raufoğlunun aldığı müsahibənin tam versiyasını buradan oxuyun:** 'Putin Is A Thug:' Senator Rick Scott Says Congress Must Hold Russia Accountable

## Buna da bax:

Xəzər dağıdıcı müharibə meydanına çevrilə bilərmi?

İran Ukraynanı vurmağa hazır olduğunu, fikrindən daşındığını iddia edir

'ABŞ İran-Rusiya-Çin-Şimali Koreya oxunu yetərincə qiymətləndirmir'– müsahibə

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur